# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01 oktyabr 2014-cü il tarixli 1045 nömrəli əmri ilə təsdiq edilmişdir**

## Orta İxtisas Təhsilinin Dövlət Standartı

## Subbakalavr hazırlığı üzrə

# T Ə H S İ L P R O Q R A M I

**İxtisasın (proqramın) şifri və adı: 040103 «Peşə təlimi»**

**BAKI – 2014**

## 1. Ümumi müddəalar

**1.1.** Subbakalavr səviyyəsinin **040103 «Peşə təlimi»** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı» və «Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı»na uyğun hazırlanmışdır.

**1.2.** İxtisas üzrə Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə subbakalavr hazırlığını həyata keçirən bütün orta ixtisas təhsili müəssisələri üçün məcburidir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**OİTP** – orta ixtisas üzrə Təhsil Proqramı
**ÜK** – ümummədəni kompetensiyalar
**PK** – peşə kompetensiyaları

**1.4. 040103 « Peşə təlimi » ixtisasının xarakteristikası.**
İTP-nin mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **040103 «Peşə təlimi»** | Subbakalavr | | |
| | | Tam orta təhsil bazasında - 3 il* | 180 |

*Ümumi orta təhsil bazasından və qiyabi forma üzrə təhsil müddəti 1il artıqdır (ixtisas üzrə qiyabi formada təhsil nəzərdə tutulduqda.)

## 2. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

**2.1. Subbakalavrın ixtisas xarakteristikası.**
Subbakalavr:
- subbakalavr peşə hazırlığına uyğun olaraq, ixtisası üzrə iş sahələrində peşə fəaliyyətinə, eləcə də bakalavr pilləsində təhsil almağa hazır olmalıdır;
- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələri, təşkilatlar, idarələr, müəssisələr, birliklərdə (vahid taarif cədvəlində bütün ştatlar üçün *ümumi olan qulluqçu vəzifələri üzrə*) və s. işləyə bilər;
- mövcud qaydalara riayət olunmaqla, müxtəlif təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışa bilər.

**2.2 Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**2.2.1 Məzun aşağıdakı ümummədəni kompetensiyalara (ÜK) yiyələnməlidir.**

- gələcək peşəsinin mahiyyətini və sosial əhəmiyyətini başa düşmək və ona dayanıqlıqlı təşəbbüs göstərmək **(ÜK-1);**
- xüsusi fəaliyyəti təşkil etmək, peşə tapşırıqlarının xüsusi həll metodlarını təmin etmək, onların effektliyini və keyfiyyətini qiymətləndirmək **(ÜK-2);**
- qeyri-standart hadisələrin gedişatının həllini tapmaq **(ÜK-3);**
- peşəkarlığın və şəxsiyyətin inkişaf etdirilməsi, peşə tapşırıqlarının tərtibi və həlli üçün informasiyaları analiz etmək və qiymətləndirmək üçün planları həyata keçirtmək **(ÜK-4);**

- peşə fəaliyyətini təkmilləşdirmək üçün informasiya kommunikasiya texnologiyalarından (İKT) istifadə etmək **(ÜK-5);**
- həmkarlarla (sənət yoldaşı) sosial partnyorlarla və rəhbərliklə qarşılıqlı təsir etmək, kollektivdə və briqadalarda işləmək **(ÜK-6);**
- qarşıya məqsəd qoymaq, təhsilalanların fəaliyyətini əsaslandırmaq, tədris prosesində onların işini təşkil etmək, işə nəzarət və keyfiyyətə görə cavabdehliyi öz üzərinə götürmək **(ÜK-7);**
- şəxsiyyətin formalaşmasını və peşəkarlıq tapşırıqlarını müstəqil təyin etmək, öz-özünə təhsilalma, şəxsi təhsil, öz biliyini artırma ilə məşğul olmaq, başa düşülmüş və dərk edilmiş qaydada ixtisasını artırmağı planlaşdırmaq **(ÜK-8);**
- texnologiyaların məzmun və mahiyyətcə dəyişdirilməsi zamanı peşəkarlıq fəaliyyətini həyata keçirtmək **(ÜK-9);**
- təhsilalanların həyat fəaliyyətinin təhlükəsizliyini təmin etmək, sağlamlığını qorumaq və zədələnmənin qarşısının alınması üçün tədbirlərin həyata keçirtmək **(ÜK-10);**
- hüquqi - normativ sənədlərə riayət etməklə peşəkarlıq fəaliyyətini qurmaq **(ÜK-11);**
- əldə edilmiş peşəkarlığa aid bilik, bacarıq və vərdişləri tətbiq etmək **(ÜK-12);**

**2.3. Peşə fəaliyyətinin növlərinə uyğun olan peşə kompetensiyaları**

**2.3.1.** ***Tədris istehsalat prosesinin təşkili(PK)***

- məşğələləri planlaşdırmaq, müəyyən məqsəd və vəzifələri təyin etmək **(PK-1.1);**
- məşğələlərin keçirilməsi üçün material və yeni texnika ilə təchiz etmək, avadanlıqların təhlükəsizlik texnikası qaydalarına görə sazlığını yoxlamaq, zəruri əmək sahələrini və təhsilalanların iş yerlərini hazırlamaq və s. şəraitləri yaratmaq **(PK-1.2);**
- auditoriyalarda, tədris-istehsalat emalatxanalarında və təşkilatlarda laborator-praktiki məşğələləri keçirtmək **(PK-1.3);**
- tədris-istehsalat emalatxanalarında və istehsalatda təhsilalanların bütün növ təcrübəsini təşkil etmək **(PK-1.4);**
- pedaqoji nəzarəti həyata keçirtmək, təhsilalanların proses və fəaliyyət nəticələrini qiymətləndirmək **(PK-1.5);**
- məşğələ və təcrübələrin təşkilini analiz etmək **(PK-1.6);**
- tədris-istehsalat prosesini təmin edən sənədləşdirməni aparmaq **(PK-1.7);**

**2.3.2.** ***Təhsilalanların dərs və dərsdənkənar fəaliyyətini pedaqoji müşayiət etmə***

- pedaqoji müşahidəni və tədqiq etməni aparmaq, alınmış nəticələri aydınlaşdırmaq və şərh etmək **(PK-2.1);**
- təhsilalan qrupun pedaqoji müşayiət etmə fəaliyyətini planlaşdırmaq, məqsəd və vəzifələrini təyin etmək **(PK-2.2);**
- təhsilalanlarla qarşılıqlı münasibət yaratmaq və müxtəlif növ dərs və dərsdənkənar fəaliyyəti təşkil etmək **(PK-2.3);**
- fərdi təhsil proqramlarının təhsilalanlarla reallaşdırmaq və formalaşdırılmasının pedaqoji cəhətdən müdafiəsini həyata keçirtmək **(PK-2.4);**
- pedaqoji kollektivin, valideynlərin (onları əvəz edən şəxslər), tərbiyəvi və təhsil tapşırıqlarının həlli zamanı idarə nümayəndələrinin qarşılıqlı əlaqəsini təmin etmək **(PK-2.5);**

2.4.***Tədris-istehsalat prosesinin metodik təminatı və təhsilalan qrupları pedaqoji müşayiət etmə***

- nümunələr əsasında tədris-metodiki vəsaitləri tərtib etmək **(PK-3.1);**
- təhsil texnologiyalarının ilk peşə təhsili və peşə hazırlığı sahəsində peşələr üzrə ədəbiyyatların öyrənilməsi əsasında pedaqoji sınaqları qiymətləndirmək və sistemləşdirmək, öz-özünü və başqa müəllimlərin fəaliyyətini təhlil etmək **(PK-3.2);**
- pedaqoji işləmələri çıxış etmə, hesabat və referat şəklində tərtib etmək **(PK-3.3);**
- ilk peşə təhsili və peşəkarlıq hazırlığı sahəsində tədqiqatın aparılması **(PK-3.4).**

2.5. ***Texnoloji proseslərin təşkilində iştirak etmə***

- ilk struktur bölmələrin (şöbə) fəaliyyətinin planlaşdırılmasında iştirak etmək **(PK-4.1);**
- texnoloji proseslərin işlənilməsi və tətbiq edilməsində iştirak etmək **(PK-4.2);**

- texniki və texnoloji sənədləri işləmək və tərtib etmək **(PK-4.3);**
- texnoloji və istehsalat intizamına riayət edilməsini təmin etmək **(PK-4.4);**
- texniki təhlükəsizlik qaydalarına əməl edilməsini təmin etmək **(PK-4.5).**

**2.6.** ***Bir və ya bir neçə qulluqçu vəzifəsi və fəhlə ixtisas dərəcəsi üzrə işlərin yerinə yetirilməsi***

## 3. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

**3.1. Peşə fəaliyyətinin xarakteristikası.**

**3.1.1. Peşə fəaliyyətinin əsas istiqamətləri:**

**040103 «Peşə təlimi»** ixtisası üzrə subbakalavrların peşə fəaliyyətinin əsas istiqamətləri:
- pedaqoji;
- istehsalat-pedaqoji;
- təşkilati-inzibatçılıq və s.

**3.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər.**

***Pedaqoji fəaliyyət üzrə:***
- liseylərdə, orta məktəblərdə müəllim vəzifəsində pedaqoji fəaliyyət göstərmək;
- liseylərdə, şagirdlərlə maarifləndirici işlərin aparılması üsullarına yiyələnmək

***İstehsalat – pedaqoji fəaliyyət üzrə:***
- ixtisas üzrə biliklərdən istifadə etmək;
- informasiyaların toplanması və emalında müasir üsullardan istifadə etmək;
- ixtisas sahəsinin əsas problemlərini dərk etmək, onların konkret tətbiq sahələrini bilmək, fənlərarası əlaqələri görmək;
- tədris prosesində kompüter texnologiyasından istifadə etmək.

***Təşkilatı – inzibatçılıq fəaliyyəti üzrə:***
- elmi praktik seminarları, dərnəkləri, disputları təşkil etmək;
- fəaliyyət nəticələrini proqnozlaşdırmaq üçün elmi yenilikləri tətbiq etmək;
- qazanılmış biliklərə, bacarıq və vərdişlərə uyğun olaraq, təhsil sahələrində kompleks məsələnin həllində iştirak etməyə hazır olmaq;
- kollektivdə öz həmkarları ilə əlbir işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə və onun metodlarına yiyələnmək.

## 3.2. Ümumtəhsil fənlər bölümü

| № | Fənlərin adı | Auditoriya saatları | Semestr üzrə bölgü | |
|---|---|---|---|---|
| | | | I semestr | II semestr |
| 1 | Azərbaycan dili (təlim rus d-də) ** | 60 | 2 | 2 |
| 2 | Azərbaycan (rus) dili | 90 | 4 | 2 |
| 3 | Ədəbiyyat | 90 | 2 | 4 |
| 4 | Xarici dil | 60 | 2 | 2 |
| 5 | Azərbaycan tarixi | 30 | - | 2 |
| 6 | Tarix | 30 | 2 | - |
| 7 | İnsan və cəmiyyət | 30 | - | 2 |
| 8 | İqtisadiyyatın əsasları | 30 | - | 2 |
| 9 | Cəbr və analizin başlanğıcı | 60 | 2 | 2 |
| 10 | Həndəsə | 30 | - | 2 |
| 11 | İnformatika | 45 | 3 | |
| 12 | Fizika | 60 | 2 | 2 |
| 13 | Astronomiya | 30 | - | 2 |
| 14 | Kimya | 60 | 2 | 2 |
| 15 | Biologiya | 30 | 2 | - |
| 16 | Fiziki coğrafiya | 45 | 3 | - |

| | | | | |
|---|---|---|---|---|
| 17 | GÇH | 60 | 2 | 2 |
| 18 | Fiziki tərbiyə | 60 | 2 | 2 |
| | CƏMİ: | 900 | 30 | 30 |

**Qeyd**: Ümumtəhsil fənlər bölümünə daxil olan fənlər, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)na uyğun müəyyənləşdirilir. Məzun bu konsepsiyaya uyğun olan biliklərə və ixtisas üzrə peşə fəaliyyətini təmin edən nəzəri və təcrübi biliklərə malik olmalıdır. Birinci kurslarda ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

- **Azərbaycan bölməsində təhsil müəssisəsinin bu saat hesabına ixtisasın profilinə uyğun müəyyənləşdirdiyi fənnlər tədris oluna bilər.

### 3.3. İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümü-nün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) | Fənn bölmə-ləri üzrə kredit-lərin sayı | Fənlər | Fənlər üzrə kredit-lərin sayı | Qazanıl-ması nəzərdə tutulan kompeten siyaların kodları |
|---|---|---|---|---|---|
| | **Təhsil hissəsi** | | | | |
| **HF–B00** | **Humanitar fənlər bölümü****** | **28** | | | |
| | Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr<br>**Bilməlidir**: **Azərbaycan dili üzrə:**<br>(təlim xarici dildə olanlar üçün) Azərbaycan Respublikasının dövlət dilini (Azərbaycan dilini) sərbəst bilməli<br><br>**Azərbaycan tarixi üzrə:**<br>-20 və 21-ci əsrlər hüdudlarında dünya hakim regionlarının əsas inkişaf istiqamətlərini ;<br>20-ci əsrin sonu – 21-ci əsrin əvvəllərində dövlətlərarası<br>- ziddiyyətlərin yerli, regional səbəblərini və mahiyyətini;<br>-dünyanın aparıcı dövlətlərinin və regionların iqtisadi və siyasi(inteqrasiya, eyni mədəniyyətli, miqrasiya və başqa) inkişafının əsas proseslərini;<br>-BMT, NATO, Aİ və başqa təşkilatların təyinatı və onların fəaliyyətinin əsas istiqamətlərini;<br>- milli və dövlət ənənələrində elmi, mədəniyyətin və dinin rolu, qorunub saxlanılması və möhkəmlənməsini;<br>-ən vacib hüquqi və qanunverici aktların tərkibi və təyin olunmasının dünya və regional əhəmiyyətini;<br>- peşəyə uyğun dilin lüğət tərkibini (1200-1400 söz) və qramatik normalarını;<br><br>-sosial mühit və sosial varəsəlik münasibətlərini bilməli, sosial təcrübələrin toplanması, saxlanılması və ötürülməsi haqqında | | **HF–B01*** **Azərbaycan dili (təlimi rus dilində olanlar üçün)**<br><br>**HF–B02 Azərbaycan tarixi**<br><br>**HF–B03 Xarici dil**<br><br>**HF–B04 Seçmə fənlər** | **6**<br><br>**4**<br><br>**8**<br><br>**10** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | təsəvvürlərə malik olmalı, milli və mədəni-tarixi faktorların təhsil və tərbiyədə rolunu; | | | | |
| | -Azərbaycan Respublikasının Konstitusiyasının əsas müddəaları, insan və vətəndaşın hüquq, vəzifə və azadlıqlarını, təhsilin hüquqi tənzimlənməsini, əmək müqaviləsi, onun bağlanması və xitam verilməsi qaydalarını; tərbiyəçinin sosial-hüquqi statusunu;<br><br>**bacarmalıdır:**<br>-Azəbaycan Respublikasında və dünyada müasir iqtisadi, siyasi və mədəni vəziyyətlə tanış olmağı;<br>-dünya, regional və vətən sosial iqtisadi, siyasi və mədəni problemləri üzə çıxarmağı;<br>- xarici dildə peşə yönümlü mətnləri (lüğətlə)tərcümə etməyi;<br>- şifahi və yazılı nitqi müstəqil təkmilləşdirməyi, lüğət ehtiyatını artırmağı.<br>**yiyələnməlidir:**<br>- Azərbaycan tarixindən vətənpərvərlik tərbiyəsində istifadəyə;<br>-cəmiyyətdə baş verən prosesləri təhlil etməyi;<br>peşə yönümlü və gündəlik mövzularda xarici dildə sərbəst (şifahi və yazılı) ünsiyyəti;<br>- xarici dildə peşə yönümlü mətnləri (lüğətlə)tərcümə etməyi;<br>- şifahi və yazılı nitqi müstəqil təkmilləşdirməyi, lüğət ehtiyatını artırmağı.<br>-xarici dildə ixtisasına uyğun sərbəst danışmaq, oxuyub tərcümə etmək vərdişlərinə | | | | **ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-7**<br>**ÜK-10** |
| **İPF – B00** | **İxtisasın peşə hazırlığı fənləri bölümü** | **116** | | | |
| | Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr<br>**bilməlidir**:<br>- tədris prosesində İKT-dən istifadəni; İKT vasitələrindən öz peşə fəaliyyətlərində səmərəli istifadə üzrə bilik, bacarıq və vərdişlər sistemi formalaşdırmaqdır; müəllimин müasir dövrün artan tələblərinə uyğun olaraq, yeni funksiyalarını, səriştəlik səviyyəsini nəzərə alsaq, bu kursun pedaqoji, təşkilati və texnoloji əhəmiyyəti özünü daha qabarıq şəkildə göstərir; müəllim öz fənnini tədris etməklə yanaşı, həm də təhsil müəssisəsinin mühüm fəaliyyət istiqamətlərində İKT-nin tətbiqi üzrə praktik işləri təşkil etməli, onları əlaqələndirməli və səmərəli idarə etməlidir; təhsilalanların "Təhsildə İKT" kursu çərçivəsində peşə hazırlığının əsas istiqamətlərini;<br>**bacarmalıdır:**<br>- kompüterdə əməliyyat aparmağı və təhsildə İKT-dən istifadə etməyi;<br>- müxtəlif növ təlim – tərbiyə fəaliyyətində, müxtəlif tip dərslərin təşkili və keçirilməsində İKT vasitələrindən istifadənin müasir üsul və metodları ilə tanışlıq; təhsil sistemində çalışan mütəxəssisin (pedaqoqun) peşə fəaliyyətində İKT-dən istifadə metod və üsullarının öyrədilməsi; tədris prosesində istifadə üçün nəzərdə tutulmuş, "səpələnmiş" informasiya resupsları ilə | | **İPF – B01 Təhsildə İKT-dən istifadə** | **4** | ÜK-10<br>ÜK-16<br>PK-2<br>PK-4 |

| | | | | |
|---|---|---|---|---|
| | (İnternetlə) işdə İKT-nin səmərəli tətbiqinin öyrədilməsini;<br>**yiyələnməlidir:**<br>- hesablama texnikası bazasında fəaliyyət göstərən multimediya texnologiyaları, məlumatın daxil edilməsi, toplanması, emalı, ötürülməsi, operativ idarə - edilməsinin avtomatlaşdırılması, süni intellekt və informasiya sistemlərinin tətbiqi şəraitində şagird şəxsiyyətinin inkişafına istiqamətləndirilmiş (şəxsiyyət yönümlü) təlimin praktik reallaşması imkanları ilə tələbələrin tanış edilməsi; bu kursun tədrisində tələbələrin müstəqil işlərinin xüsusi çəkisi xeyli yüksəkdir; laborator praktikumundakı müstəqil iş prosesində tapşırıqlarının icrası üçün zəruri məlumatların İnternetdən axtarılıb, tapılması nəzərdə tutulur; elektron tədris vəsaitlərinin, həmçinin digər tədris təyinatlı proqram vasitələrinin keyfiyyətinin qiymətləndirilməsi ilə əlaqədar laborator praktikum tapşırıqlarının icrası zamanı məktəb informatika kursu üzrə proqram vasitələrindən istifadə etməyə.<br>**bilməlidir**<br>- Psixologiyanın ümumi əsaslarını;<br>- insanın fərdi-tipoloji xüsusiyyətlərini;<br>- yaş və pedaqoji psixologiyanı onun, təlim-tərbiyə, əmək pedaqoji fəaliyyətlərini;<br>- sosial və peşə psixologiyasını<br>-riyyaziyyat kursunun anlayış və qanunlarını;<br>- tədris prosesində İKT-dən istifadəni;<br>- təlim və tərbiyənin əsas forma və metodlarını, şəxsiyyətin psixoloji aspektlərini;<br>**bacarmalıdır:**<br>*pedaqoji fəaliyyəti;* pedaqoji qabiliyyətlərin diaqnostikasını pedaqoji ünsiyyət onun funksiyaları üslubları və metodlarını; pedaqoji ünsiyyət mədəniyyətini qarşılıqlı pedaqoji təsir psixologiyasını pedaqoji fəaliyyətin fərdi üslublarını; münasibət kateqoriyasının psixoloji məzmunu: valideyin-uşaq münasibətlərini; ünsiyyət psixologiyasının (partikum): ünsiyyət və ünsiyyətçiliyi ünsiyyət və fəaliyyəti; ünsiyyətin çoxplanlı xarakterini; ünsiyyətdə rollarını; ünsiyyətdə simpatiyanın; dinləmə qaydalarını; söhbətin aparılmasını; inandırma qaydalarını; konfiliktlər və onlardan çıxmağın yolların davranışın korreksiyasını müxtəlif yaşlı uşaqlarla ünsiyyətin yollarını; uşaqların öz yaşıdları ilə ünsiyyət yaradılması yollarını<br>**yiyələnməlidir:**<br>-əmək insan fəaliyyətinin bir növü kimi; əməyin növləri, məzmunu və mürəkkəbliyi peşə əməyi yaradıcı əmək; əməyin quruluşu, onun obyekti, məqsədi, vasitələri, yolları, əməyin nəticələri, əmək şəraiti; əməyin əməliyyat sahəsi; əmək fəaliyyətinə (əmək bacarıqları); əməyin motiv-dəyər sahəsi (motivlər, maraqlar, tələbatlar, qabiliyyətlər); əməkdə yaradıcılıq məktəblilərin peşə seçimlərinin müəyyənləşməsi təlim-idrak fəaliyyətinin psixologiyası inkişafetdirici təlim; bir fəaliyyət növü kimi təlimin mahiyyəti; əqli hərəkətlərin formalaşmanın mərhələli nəzəriyyəsi (P.İ..Qalperinə görə); | | **İPF – B02 Psixologiya** | **4** | ÜK-1<br>ÜK-2<br>ÜK-15<br>PK-1<br>PK-2<br>PK-15<br>PK-17<br>PK-18 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | “inkişafetdirici təlim” anlayışı; təlim fəaliyyəti konsepsiyası əqli fəaliyyət yollarına<br><br>**bilməlidir**<br>pedaqogikanın yaranması, inkişafı humanitar və təbiət elmləri sistemində onun yerini;<br>-pedaqoji peşə fəaliyyətin asspektlərini cəmiyyətdə müəllimin rolunu;<br>-pedaqogikanın ümumi əsaslarını, humanitar və təbiət elmləri sistemində onun yerini;<br>-pedaqogika elminin quruluşunu, nəzəriyyəsini, Azərbaycan təhsil sisteminin yaranması və inkişafını, dövlət təhsil siyasətinin əsas prinsiplərini;<br>-təhsil və təlim nəzəriyyəsi; təlimin məzmunu ibtidai və orta təhsilin müasir konsepsiyalarını; təlimin mahiyyəti və hərəkətverici qüvvələri; müxtəlif yaş dövrlərində təlimin motivlərini;<br>**bacarmalıdır:**<br>məktəblilərin təlim idrakı fəaliyyətinə rəhbərliyi təlimin prinsipləri, metodları və təşkilini; məktəbdə tədris, onun tipləri, quruluşu dərsin aparılmasına və təhlilinə edilən tələbləri; məktəblilərin təlim müvəffəqiyyətlərin diaqnostikası və qiymətləndirilməsini tərbiyə nəzəriyyəsi və onun metodikasını tərbiyənin məqsədi və vəzifələrini; tərbiyənin hərəkətverici qüvvələrini; tərbiyənin müasir konsep-siyalarını, onun sosiomədini əsasları, elmi-metodiki əsaslandırılması və praktiki tətbiqini məktəblilərin təlim prosesində və sinifdənxaric fəaliyyət növlərində tərbiyəsini; kollektiv və şəxsiyyət, onların qarşılırlı münasibətlərinin təşkilini; müəllimin sinif rəhbərliyinin fəaliyyətin, əsas istiqamətləri və formalaşdırılmasını; məktəblinin səviyyəsinin qiymətləndirilməsini;<br>*pedaqoji fəaliyyəti;* pedaqoji qabiliyyətlərin diaqnostikasını pedaqoji ünsiyyət onun funksiyaları üslubları və metodlarını; pedaqoji ünsiyyət mədəniyyətini qarşılıqlı pedaqoji təsir psixologiyasını pedaqoji fəaliyyətin fərdi üslublarını; münasibət kateqoriyasının psixoloji məzmunu: valideyn-uşaq münasibətlərini; ünsiyyət psixologiyasının (partikum): ünsiyyət və ünsiyyətçiliyi ünsiyyət və fəaliyyəti; ünsiyyətin çoxplanlı xarakterini; ünsiyyətdə rollarını; ünsiyyətdə simpatiyanın; dinləmə qaydalarını; söhbətin aparılmasını; inandırma qaydalarını; konfiliktlər və onlardan çıxmağın yolların davranışın korreksiyasını müxtəlif yaşlı uşaqlarla ünsiyyətin yollarını; uşaqların öz yaşıdları ilə ünsiyyət yaratması yollarını<br>**yiyələnməlidir:**<br>məktəb pedaqogikasını, təhsil və təlim nəzəriyyəsini tərbiyənin müasir konsepsiyalarını, elmi-metodiki əsaslandırmaları kollektiv və şəxsiyyət problemini təlim proseslərinə;<br>-əmək insan fəaliyyətinin bir növü kimi; əməyin növləri, məzmunu və mürəkkəbliyi peşə əməyi yaradıcı əmək; əməyin quruluşu, onun obyekti, məqsədi, vasitələri, yolları, əməyin nəticələri, əmək şəraiti; əməyin əməliyyat sahəsi; əmək | | **İPF – B03 Pedaqogika** | **6** | ÜK-9<br>ÜK-10<br>ÜK-11<br>PK-2<br>PK-3<br>PK-9 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | fəaliyyətinə (əmək bacarıqları); əməyin motiv-dəyər sahəsi (motivlər, maraqlar, tələbatlar, qabiliyyətlər); əməkdə yaradıcılıq məktəblilərin peşə seçimlərinin müəyyənləşməsi; təlim-idrak fəaliyyətinin psixologiyası inkişafetdirici təlim; bir fəaliyyət növü kimi təlimin mahiyyəti; əqli hərəkətlərin formalaşmanın mərhələli nəzəriyyəsi (P.İ..Qalperinə görə); "inkişafetdirici təlim" anlayışı; təlim fəaliyyəti konsepsiyası əqli fəaliyyət yollarına<br><br>**bilməlidir:**<br>istehsalat təlimi prosesinin təşkili və planlaşdırılmasına dair işlərin, təkliflərin təkmilləşdirilməsini; tədris emalatxana və laboratoriyalarda laborator –təcrübə dərslərinin məqsəd və məzmununun planlaşdırılması, tədris emalatxanalarının təşkili, tədris istehsalat işlərinin tərkibinin emalatxanada təşkili və təhsilalanların təcrübələrinin istehsalatdakı emalatxanalarda və istehsalat şəraitində təşkilini; şagirdlərin iş yerlərindəki avadanlıqların təhükəsizliyini, iş yerlərində əməyin və iş yerlərinin təşkili; laborator-təcrübə dərslərində auditoriyalarda, tədris emalatxanalarında tədris-istehsalat işlərinin yerinə yetirilməsi zamanı təhlil və özünü təhlilin təşkili, tədris emalatxanasında təlimin müzakirəsini, tələbələrin dialoqunu, müəllim və təcrübə rəhbərlərinin təkliflərinin təkmilləşdirilməsinin həyata keçirilməsi və düzəliş edilməsini; tədris istehsalat və istehsalat təlimi sənədlərinin tərtib olunmasını.<br>**bacarmalıdır:**<br>metodiki tövsiyyələri, ədəbiyyatları və digər məlumat mənbələrini tapmaq, onlardan istifadə etməyi; laborator təcrübə işlərinin hazırlanması; təcrübə dərslərinin hazırlanması, keçirilməsi və şagirdlərlə təcrübələrin təşkil olunmasını; müəssisə və təşkilatlarda tədris-istehsalat prosesinin qarşılıqlı əlaqəsini yaratmağı; tədris-istehsalat prosesinin planlaşdırılması, tədris-istehsalat tapşırıqlarının tərkibinin seçilməsi və tədris istehsalat işlərinin tərkibi, cədvəlin tərtib etməyi; şagirdləri laborator təcrübə dərslərinin və bütün növdən olan təcrübələrin təşkili və keçirilməsini; tədris-istehsalat prosesində təlimin müxtəlif forma və metodlarından istifadə etməyi; tədris-istehsalat, istehsalat işlərinin normalaşdırılmasını təşkil etməyi; təlimin texniki vasitələrindən istifadə etməyi və sadə vasitələrin hazırlanmasını; tədris prosesində müxtəlif sifarişləri vermək, tədris-istehsalat işlərində istifadə olunan texnoloji avadanlıqların təchizatının təminatını hazırlamağı; təhsilalanların valideynləri, onları əvəz edən, o cümlədən ilkin müəssisələrdə onlara rəhbərlik edən şəxslərdə pedaqoji, məqsədyönlü və qarşılıqı münasibətlərin yaradılmasını; təhsilalanların fəaliyyətinə, hazırladıqları məhsulların keyfiyyətinə pedaqoji münasibət və nəzarətin təşkili; təhsilalanların dərs zamanı və təcrübəsinin təşkilində görülən işlərin analizi və özününəzarətin təşkili; peşə təlimi prosesinin nəticələrini, ayrı –ayrı dərslərin, təcrübələrin təşkilini təhlil etmək və təkmilləşdirmək; tədris – istehsalat prosesinə aid olan sənədlərin tərtib olunmasını; | | **İPF – B04 İstehsalat təliminin təşkili və metodikası (sahələr üzrə** | **4** | ÜK-8<br>ÜK-9<br>PK-2<br>PK-21<br>PK-26 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **yiyələnməlidir**:<br>peşə təlimində (sahələr üzrə) nəzəri metodikanın əsaslarına; tədris–istehsalat prosesində normativ-hüquqi metodiki münasibətlərin qarşılıqlı əlaqəsinə; peşə təliminin (sahələr üzrə) məqsədi, məzmunu forma və metodlarına; peşə təliminin məqsəd və vəzifəsindən asılı olaraq, məzmunun planlaşdırılmasının keçirilməsi yerində sənətin öyrədilməsinə; ilk peşə ixtisas təhsilində peşə hazırlığının məqsədi və üstünlükləri proqramı üzrə orta peşə ixtisaslı tədrisin tətbiqinə təlimin müasir texniki vəsaitlərindən istifadə etməklə peşə təlimində təlimin forma və metodlarına; sadə konstruksiyalı təlimin texniki vastələrindən istifadəyə; istehsalat təlimində peşə terminlərindən, istehsalın texnologiyasından, istehsalat avadanlıqlarından istifadə və iş zamanı təhlükəsizlik qaydalarına əməl olunması, eləcə də avadanlıqların saxlanılmasına verilən tələblərə; texnoloji prosesə uyğun işlərin tərkibinin seçilməsi cədvəlinin hazırlanmasına; yarımfabrikatların görüntülərinin sxeminin verilməsinə; texnoloji təchizat və avadanlıqların sifariş olunmasının forma və tərtibatına təchizat və avadanlıqların yoxlanması və qəbul olunmasına. müəssisə və sahələrdə əmək mühafizəsinin təşkilinin normativ- hüquqi təşkilinə; təhlükəli zərərli istehsalat avadanlıqlarında iş zamanı mühafizə metodlarına; peşə təliminin təşkilinə verilən tələblərə nəzarət etməyə; tədris isehsalat prosesinə aid olan sənədlərə və onların tərtibinə verilən tələblərə. | | | | ÜK-7<br>PK-6<br>PK-7<br>PK-8 |
| | **Bilməlidir:**<br>-insanın anatomiyası- fiziologiyası bir elm kimi; nəzəri əsaslarını, insan orqanizminin quruluşu və inkişaf qanunauyğunluqlarını;<br>-insan orqanizminin fizioloji xüsusiyyətlərini;<br>**Bacarmalıdır:**<br>-Bədən üzvləri və hissələrinin simmetriyasını düzgün təyin etməyi;<br>-iş prosesində anatomiya, fiziologiya və gigiyena haqqında aldıqları biliklərin tətbiqini;<br>-ətraf mühitin insanın orqanizminə, fəaliyyətinə və inkişafına təsirini;<br>**Yiyələnməlidir:**<br>-uşaqların yaşlarına uyğun anatomik-fizioloji xüsusiyyətlərini müəyyənləşdirməyi;<br>-fizioloji prosesin uşağın fiziki və psixi inkişafına təsiri;<br>-uşağın həyatında gigiyenik tələblərin gözlənilməsinə;<br>-infeksion xəstəliklərin profilaktikasında tədbirlərin icrasına;<br>-peşə təliminin gigyenasına; | | **İPF – B05 İnsanın anatomi-yası, fizio-logiyası və gigiyenası** | **4** | |
| | **Bilməlidir:**<br>- Tibbi biliklərin əsaslarını, ilk tibbi yardımın göstərilməsi qaydalarını;<br>-uşaq xəstəlikləri və onlarla mübarizə yollarını; | | **İPF-BO6 Tibbi biliklərin** | **4** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Bacarmalıdır:**<br>-xəstələrə ümumi qulluq etməyi, ilk tibbi yardımın göstərilməsini;<br>**Yiyələnməlidir:**<br>-ilk tibbi yardımın həyata keçirilməsi qaydalarına; | | **əsasları** | | |
| | **bilməlidir:**<br>-çoxluq anlayışını, onlar arasındakı münasibətləri, onlar üzərində əməliyyatları;<br>-fikrin doğruluğunun təsdiqi üsullarını;<br>-müsbət skalyar kəmiyyət anlayışı, onun ölçmə prosesini, kəmiyyətlərin ölçü vahidlərini və onlar arasındakı münasibəti<br>-təqribi hesablama qaydalarını;<br>- statistik riyazi üsulları;<br>**bacarmalıdır:**<br>-(tətbiqi peşəkar) məsələlərin həllində riyazi metodlardan istifadə etməyi.<br>-verilmiş xətalarda kəmiyyətlərin ölçülmə nəticələrini analiz etmək onları qrafik təsvir etməyi<br>-təqribi hesablamalar aparmağı<br>-informasiyanın və tədqiqat nəticələrinin statistik elementar emalını aparmağı.<br>**yiyələnməlidir:**<br>-peşə fəaliyyətində və layihələndirmə zamanı, ölçmələr aparmağa, nəticələri hesablamağa, əlverişli riyazi üsulları tətbiq etməyə; | | **İPF-BO7 Riyaziyyat** | **6** | ÜK-9<br>PK-11<br>PK-12<br>PK-17<br>PK-21 |
| | **bilməlidir:**<br>- iqtisadi sahələrin stabilliyinin təmin edilməsi prinsiplərini, fövqəladə hallarda, təbii fəlakətlər zamanı ictimai şəraitin proqnozlaşdırılmasını, Azərbaycan Respublikası üçün terrorçular tərəfindən təhlükə yaranarsa ona qarşı mübarizə qaydalarını;<br>- peşə fəaliyyəti sahəsində mövcud ola biləcək təhlükələrin və onların təsirinin azaldılması prinsiplərini;<br>- hərbi xidmətin və dövlətin müdafiəsi qaydalarının əsaslarını;<br>- mülki müdafiənin əsas məsələlərini;<br>- zərərçəkmişlərə ilk yardım göstərilməsinin qaydalarını və ardıcıllığını<br>**bacarmalıdır:**<br>- fövqəladə hallar zamanı işçilərin və əhalinin zərərli təsirlərdən mühafizə edilməsi üçün tədbirlərin hazırlanması və keçirilməsini;<br>- məişət və peşə zərərlərinin təsirinin azaldılması üçün profilaktik tədbirlərin tətbiqini;<br>- kütləvi qırğın silahlarının tətbiqi zamanı kollektiv və fərdi mühafizə vasitələrindən istifadə qaydalarını;<br>- ilk yanğınsöndürmə vasitələrindən istifadə qaydalarını;<br>- hərbi-qeydiyyat peşələrinin növlərindən baş çıxarmağı və onlar arasında yaxın (qohum) olan peşələri ayırd etməyi;<br>- hərbi xidmət zamanı ixtisasa uyğun olaraq peşə bacarığı tətbiq etməyi; | | **İPF-BO8 Əməyin mühafizəsi və təhlükə-sizliyi** | **4** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - ekstremal hərbi şəraitdə fərdi yanaşma, tənzimləmə bacarığına yiyələnməyi;<br><br>- zərərçəkmişlərə ilk yardım göstərilməsini;<br>**yiyələnməlidir:**<br>-tibbi biliklərə;<br>- əmək və peşə fəaliyyətində təhlükəsiz əmək şəraitinin təmini xüsusiyyətlərinə;<br>- maşın və avadanlıqların idarə edilməsi qaydalarına;<br>- əməyin elmi təşkili qaydalarına;<br>- yanğından mühafizə vasitələrindən istifadəyə | | | | |
| **İPSF–B00** | **İxtisaslaşmalar üzrə seçmə fənlər bloku** ***** | **60** | (орта ихтисас тящсили мяктябляри тяряфиндян мцяййян-ляшdirilir) | | |
| **İHSF–B00** | **İxtisas hazırlığı üzrə seçmə fənlər bloku***** | **20** | (орта ихтисас тящсили мяктябляри тяряфиндян мцяййян-ляшдирилир) | | |
| **İT-B00** | **Təcrübələr** | **30** | | | |
| | Bu bölümə aid olanların öyrənilməsi nəticəsində təhsil alan<br>**bilməlidir:**<br>tədris prosesində nail olduğu bilik, bacarıq və vərdişləri istehsalat təcrübəsi prosesində dərinləşdirməli və möhkəmləndirməli, peşə fəaliyyətinin bütün sahələrində tətbiq etməyi;<br>**bacarmalıdır:**<br>tədris-istehsalat emalatxanalarında və fəaliyyət göstərən müəssisələrdə, təşkilatlarda təcrübənin keçirilməsi prosesində peşə bilikləri və texnologiyalar üzrə prosesləri möhkəmləndirməli və dərinləşdirməli, əmək vərdişlərini (əməliyyatları) sərbəst yerinə yetirməyi;<br>fəhlə peşə ixtisas dərəcəsini almaq bacarıqlarını;<br>pedaqoji təcrübənin peşə təhsili, tədris-kurs məktəbləri, müəssisə və təşkilatlarda keçirilməsi zamanı psixoloji pedaqoji fənlər üzrə biliklərin möhkəmləndirilməsini, tədris qrupunun və təhsil alanların şəxsiyyətinin öyrənilmə səriştəsinə, peşə hazırlığı və sinifdənxaric müxtəlif dərs növlərinin planlaşdırılmasını;<br>**yiyələnməlidir:**<br>diplomqabağı təcrübədə istehsalat və təhsil prosesində məzuna lazım olan təşkilatçılıq bacarığını və idarəetmə fəaliyyətinə, | | İT-B01 Tədris<br><br>İT-B02 Pedaqoji<br><br>İT-B03 diplom-qabağı | **4**<br><br>**12**<br><br>**12** | ÜK-3<br>ÜK-10<br>ÜK-16<br>PK-2<br>PK-4<br>PK-6<br>PK-8<br>PK-12<br>PK-13 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | “Yekun Dövlət Attestasiya”sı imtahanlarına lazım olan materialları toplamağa.<br>**Yekun attestasiya;**<br>**Tam orta təhsil bazasında kreditlərin ümumi cəmi:** | **6**<br>**180** | | | | |

*Orta ixtisas məktəblərinin təklifləri əsasında Azərbaycan bölməsində təhsilalanlar öz arzuları ilə həmin saat həcmində ikinci xarici dili və ya Azərbaycan dili və nitq mədəniyyəti fənnini seçə bilərlər.

**Azərbaycan bölməsində təhsil alanlar bu saat hesabına fənləri ixtisasın profilinə uyğun olaraq tədris müəssisəsinin özü tərəfindən müəyyənləşdirilir.

***Seçmə fənlərə orta ixtisas məktəbi tərəfindən fəlsəfə, politologiya,sosiologiya, milli əxlaq və ailə etikası, dövlət və vətən mədəniyyəti, hüququn əsasları və.s humanitar, sosial-iqtisadi fənlər daxil oluna bilər.

****Ümumtəhsil fənlər bölümü yalnız ümumi orta təhsil bazasından qəbul olunanlara aiddir.

*****Humanitar fənlər bölümünə daxil olan “Azərbaycan dili” (xarici dildə təhsil alanlar üçün), “Azərbaycan tarixi”, “Xarici dil” fənləri tam orta təhsil bazasından qəbul olunanlar üçün isə ikinci dərs ilindən başlayaraq tədris olunur.

******İxtisasın peşə hazırlığı bölümünün seçmə fənləri orta ixtisas məktəbi tərəfindən müəyyənləşdirilir.

**Qeyd:** Fiziki tərbiyə idmanın bölmələri üzrə keçirilir.

**3.4. 040103 «Peşə təlimi»** ixtisası üzrə subbakalavr təhsil proqramının yerinə yetirilməsinin müddəti:

Subbakalavr təhsil proqramını mənimsəmək üçün ayrılan ümumi həftələr – 198
Nəzəri təlim üçün ayrılan həftələr - 102
O cümlədən, təcrübələr üçün ayrılan həftələr (ixtisasdan asılı olaraq) - 20
İmtahan sessiyası üçün ayrılan həftələr - 34
Tətillər üçün ayrılan həftələr -38
Buraxılış işi və ya yekun dövlət imtahanlarına ayrılan həftələr – 4

## 4. Maddi-texniki, tədris bazası və kadr potensialı

**4.1.** Orta ixtisas təhsili müəssisəsinin **040103 «Пешя тялими»** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların orta ixtisas təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**4.2.** Fənlərin tədrisi, bir qayda olaraq, elmi dərəcəsi və ya ali təhsili olan müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

## 5. Tədris prosesinin forma və metodları

**5.1.** Subbakalavr hazırlığı mühazirə, məşğələ (laboratoriya), seminar, məsləhət, sərbəst iş, təcrübə və s. formalarda həyata keçirilir.

**5.2.** Subbakalavr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

**5.3.** **040103«Пешя тялими»** ixtisası üzrə subbakalavr hazırlığında istehsalat və pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq, müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq, müvafiq idarə və təşkilatlarda, məktəblərdə və s. keçirilə bilər.

## 6. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

**6.1.** İxtisaslar üzrə təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır.

**6.2.** Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvəffəqiyyətlə keçmiş tələbələr yekun attestasiyaya buraxılırlar.

**6.3.** Yekun attestasiya bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 4 həftədir.

**6.4.** Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanı (fənlərarası) və ya buraxılış işinin müdafiəsindən ibarətdir.

**6.5.** İxtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Orta ixtisas təhsili müəssisələrində subbakalavr səviyyəsinin təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında “subbakalavr” orta peşə-ixtisas dərəcəsi verilir.

**6.6.** Yekun attestasiyanın təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası
Təhsil Problemləri İnstitutunun
direktoru________Q.Novruzov
“___”___________2014-cü il

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
orta ixtisas təhsil sektorunun
müdiri___________K.Mikayılov
“___”______________2014-cü il

Təhsil ixtisasları qrupu üzrə
Dövlət Təhsil Standartlarını
hazırlayan işçi qrupunun
sədri__________D.Hacıyeva
“___”___________2014-cü il

Təhsil Nazirliyinin Elmi-metodik
şurasının “Məktəbəqədər və
İbtidai təhsil” bölməsinin
sədri__________Y.Kərimov
“___”______________2014-cü